# Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 16 mart tarixli 1941 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Yerin təkinin geoloji öyrənilməsinə və mineral xammal bazasından səmərəli istifadəyə dair 2020 - 2024-cü illər üçün Dövlət Proqramı"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, təbii sərvətlərdən səmərəli istifadənin təmin edilməsi, işğaldan azad olunmuş ərazilərin bərpasına və infrastrukturunun qurulmasına olan tələbatı ödəməyə qadir olan mineral xammal bazasının formalaşdırılması məqsədilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 16 mart tarixli 1941 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 323;2021, № 11, maddə 1235) ilə təsdiq edilmiş "Yerin təkinin geoloji öyrənilməsinə və mineral xammal bazasından səmərəli istifadəyə dair 2020 - 2024-cü illər üçün Dövlət Proqramı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.2-ci hissənin dördüncü abzasının üçüncü cümləsində "AzerGold" QSC-nin kontrakt sahəsində yerləşən" sözləri "Öyrənilməsi, tədqiqi, kəşfiyyatı, işlənilməsi və səmərəli idarə olunması "AzerGold" QSC-yə həvalə edilmiş" sözləri ilə əvəz edilsin.

2.5.0.1-ci yarımbənddə "Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən aidiyyəti dövlət orqanları (qurumları)" sözləri "icraçı qurumlar" sözləri ilə əvəz edilsin.

3.8-ci hissə üzrə:

3.1. 8.1.1-ci yarımbəndin "Tədbirin adı" sütununda "Lənkəran - Astara iqtisadi rayonu ərazisinin" sözləri "Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının ərazilərinin" sözləri ilə əvəz edilsin;

3.2. 8.1.5-ci yarımbəndin "Tədbirin adı" sütununda "Masallı-Göytəpə" sözləri"Füzuli, Cəbrayıl və Ağdam rayonları" sözləri ilə əvəz edilsin;

3.3. aşağıdakı məzmunda 8.1.7-ci yarımbənd əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| 8.1.7. | Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının geoloji quruluşu (stratiqrafiya, tektonika, maqmatizm, hidrogeologiya) və faydalı qazıntılar üzrə toplu məlumatlar bazasının yaradılması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | AMEA | 2022-2024 |

3.4. 8.2.1-ci yarımbəndin "Tədbirin adı" sütununda "dəmirə, kobalta və nəcib metallara (qızıl, gümüş)" sözləri "nəcib metallara (Çovdar yatağının uzaq cinahlarında - Quytul-Pəyədərə-Nüzgər-Balçılı)" sözləri ilə və həmin yarımbəndin "Digər icraçılar" sütununda "İqtisadiyyat Nazirliyi" sözləri "AzerGold" QSC" sözləri ilə əvəz edilsin;

3.5. 8.2.4-cü yarımbəndin "Tədbirin adı" sütununda "Tufan və Somxit-Qarabağ struktur-formasiya zonalarında mis filizinə perspektivli sahələrdə geoloji axtarış"sözləri "Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının ərazilərində (Kiçik Qafqazın mərkəzi və cənub hissəsi) nəcib və əlvan metallara (mis) perspektivli sahələrdə geoloji-axtarış" sözləri ilə əvəz edilsin və həmin yarımbəndin "Digər icraçılar" sütununa "AzerGold" QSC" sözləri əlavə edilsin;

3.6. 8.2.5-ci yarımbəndin "Tədbirin adı" sütununda "Vəndam struktur-formasiya zonasında (İsmayıllı rayonu ərazisində) qızıla perspektivli konqlomeratlarda" sözləri "Daşkəsən filiz rayonunun cənub hissəsində (Zivlən-Alxançallı-Şahkərəm-Qaraqullar-Şahvəlıdli-Çanaxçı) nəcib və əlvan metal yataqları üzrə" sözləri ilə və həmin yarımbəndin"Digər icraçılar" sütununda "İqtisadiyyat Nazirliyi" sözləri "AzerGold" QSC" sözləri ilə əvəz edilsin;

3.7. 8.2.6-cı yarımbəndin "Tədbirin adı" sütununda "Qusar-Şabran və Şamaxı-Qobustan ərazilərində çökmə mənşəli radioaktiv elementlərə perspektivli sahələrin qiymətləndirilməsi" sözləri "Çovdar nəcib metallar yatağının yaxın cinahlarında kəşfiyyat" sözləri ilə əvəz olunsun və həmin yarımbəndin "Digər icraçılar" sütununa "AzerGold" QSC" sözləri əlavə edilsin;

3.8. aşağıdakı məzmunda 8.2.7 - 8.2.13-cü yarımbəndlər əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| 8.2.7. | Gəncəçay-Kürəkçay sahəsində (Çıraqlı-Zurnabad-Buzluq-Başqılaq) axtarış işlərinin aparılması | "AzerGold" QSC | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2022-2024 |
| 8.2.8. | Gədəbəy rayonu ərazisində (Qaradağ-Xarxar-Cəyirçay sahələrində) axtarış işlərinin aparılması | "AzerGold" QSC | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2022-2024 |
| 8.2.9. | Göygöl rayonu ərazisində (Tülallar-Həsənlər sahəsi) axtarış işlərinin aparılması | "AzerGold" QSC | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2022-2023 |
| 8.2.10. | Daşkəsən dəmir qrupu yataqlarının ehtiyatlarının yenidən qiymətləndirilməsi və kəşfiyyat işlərinin aparılması | "AzerGold" QSC | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2022-2023 |
| 8.2.11. | Balakən-Zaqatala rayonlarında (Filizçay, Mazımçay və Katex sahələrində) geoloji axtarış və kəşfiyyat işlərinin aparılması | "AzerGold" QSC | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2022-2024 |
| 8.2.12. | Naxçıvan MR-də (Göydağ-Ortakənd sahəsində) geoloji axtarış və kəşfiyyat işlərinin aparılması | "AzerGold" QSC | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2022-2024 |
| 8.2.13. | Naxçıvan MR-də (Kükü-Zrnel və Ləkyətaq sahələrində) geoloji axtarış və kəşfiyyat işlərinin aparılması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | "AzerGold" QSC | 2022-2024 |

3.9. 8.3.2-ci yarımbəndin "Tədbirin adı" sütununda "Abşeron və Qobustan rayonları ərazilərində dolomit xammalı ilə bağlı geoloji axtarış" sözləri "Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının ərazilərində qeyri-filizlərlə bağlı axtarış-qiymətləndirmə" sözləri ilə əvəz edilsin;

3.10. 8.3.4-cü yarımbəndin "Tədbirin adı" sütununda "Qobustan, Xızı, Abşeron rayonları ərazisində bentonit gilləri ilə bağlı" sözləri "Laçın rayonu ərazisində mineral gübrə xammalları ilə bağlı perspektivli sahələrdə" sözləri ilə əvəz edilsin;

3.11. 8.3.6-cı, 8.3.8-ci, 8.3.9-cu, 8.5.3-cü, 8.5.5-ci, 8.6.1-ci, 8.7.2-ci və 8.8.2-ci yarımbəndlər ləğv edilsin;

3.12. 8.4.2-ci yarımbəndin "Tədbirin adı" sütununda "rayonunun" sözü"və Qobustan rayonlarının" sözləri ilə və həmin yarımbəndin "İcra müddəti" sütununda "2021" rəqəmləri "2022" rəqəmləri ilə əvəz edilsin;

3.13. 8.4.4-cü yarımbəndin "Tədbirin adı" sütununda "Ekoloji təhlükə yaranan ərazilərin bərpası üçün kompleks geoloji, geoekoloji və hidrogeoloji tədqiqatlar" sözləri "Cəbrayıl düzənliyinin (Zəngilan, Cəbrayıl və Füzuli rayonları ərazisi) yeraltı su yataqlarının təftişi və qiymətləndirilməsi işlərinin" sözləri ilə və həmin yarımbəndin "İcra müddəti" sütununda "2020" rəqəmləri "2022" rəqəmləri ilə əvəz edilsin;

3.14. aşağıdakı məzmunda 8.4.5-ci və 8.4.6-cı yarımbəndlər əlavə edilsin:

| | | | | |
|---|---|---|---|---|
| 8.4.5. | Azərbaycan Respublikasının ərazisində mövcud yeraltı su yataqlarının istismar ehtiyatlarının yenidən qiymətləndirilməsi | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | | 2022-2024 |
| 8.4.6. | Ekoloji təhlükə yaranan ərazilərin bərpası üçün kompleks geoloji, geoekoloji və hidrogeoloji tədqiqatların aparılması | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | | 2022-2024 |

3.15. 8.5.4-cü yarımbəndin "Tədbirin adı" sütununda "geoloji tektonik quruluşunun öyrənilməsi və seysmohidrogeodinamik şəraitinin qiymətləndirilməsi" sözləri "geoloji-tektonik quruluşunun öyrənilməsi" sözləri ilə əvəz edilsin;

3.16. 8.8.1-ci yarımbəndin "Tədbirin adı" sütununda "yeni buruq-qazma avadanlığının, geofiziki cihazların, topoqrafik GPS-lərin, planşetlərin, yeni nəsil kompüterlərin alınması və müasir proqram təminatlarının" sözləri "müasir geofiziki cihazların, kompüterlərin və proqram təminatının" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 7 may 2022-ci il*

Azərbaycan.- 2022.- 8 may.- S.13.